https://doi.org/10.59849/3006-2403.2024.1.181

***Leyla KƏRİMOVA***
***AMEA Gəncə Bölməsi***
***Nizami Gəncəvi Mərkəzi***
***E-mail: Leynanu@gmail.com***
***https://orcid.org/0009-0005-6165-9268***

# NİZAMİ GƏNCƏVİDƏ DÖVLƏTÇİLİK İDEALLARI

*Açar sözlər:* ədalət, hökmdar, dövlət, cəmiyyət, hakimiyyət

Nizami Gəncəvinin yaşadığı XII əsrdə Azərbaycanda hakim dövlət olan Atabəylər dövləti idi. Atabəy Şəmsəddin Eldəniz ölmüş, onun yerinə oğlu Cahan Pəhlivan keçən gündən bəri Azərbaycan xalqının bütün həyatı daxili müharibələrdə keçirdi. Cahan Pəhlivan Atabəy Məhəmməd hakimiyyət başına gələndən sonra hakimiyyəti möhkəmləndirmək üçün apardığı müharibələrdə ancaq azərbaycanlıları, xüsusən aranlıları döyüşə aparırdı [ 1,7].

Müharibələr, yerli hakimlərin özbaşınalığı, hakimiyyət başında oturanların fars və ərəblərdən olması, həbslərin və sürgünlərin sayının artması, vergi verə bilməyən kəndlilərin cəzalandırılması kimi bir dövrdə yaşayırdı şair Nizami. Elə bir dövr ki alimlər, şairlər, incəsənət işçiləri camaat gəzən meydanlara, məscidlərə və səyahət yerlərinə getməkdən məhrum edilmişdir [1, 190].

Nizami üçün dövlətin ədalətlə idarə olunması əsas məsələlərdən biri olmuşdur. Dövlətin ədalətli idarə olunması üçün dövlətin başında ədalətli hökmdarın olması vacib amillərdən biridir.

Nizami Gəncəvi " Xəmsə"də hökmdar və cəmiyyət arasındakı münasibətlərin mənfi tərəfini qorxmadan, cəsarətlə açıb göstərmiş, onların səhvlərini, cinayətlərini üzlərinə deməkdən çəkinməmiş, öyrətməklə, xəbərdarlıq etməklə dövrün hökmdarlarını ədalətli olmağa, xalqı başa düşməyə səsləmişdir. Şairin əsas qayəsi dövrün hökmdarlarını əsərləri vasitəsilə utandırmaq, ağıllandırmaq, günahlarını başa düşüb düzgün yola gəlmələri üçün onların ədalətli olmasına çalışmaqdan ibarətdir.

Dahi şair Nizami dövrünün zalım hökmdarlarını gah axirətlə qorxudur, gah zülmün bu dünyada onlara zərər, ziyan yetirəcəyini xatırladır, onları xalqın qəzəbi ilə hədələyir.

Aləmi kim fəth eləyər zülm ilə,
Mülkü ədalətlə alarlar ələ.
Məmləkəti ədlilə olar payidar,
İşlərin əql ilə olar bərqarar [ 4,12].

Dövrünün hökmdarlarının bir heç olduğunu, günlərini əyləncələrdə keçirən, nahaq qanlar tökən, kəndləri, şəhərləri xarabalığa şevirən, ancaq özləri üçün yaşayan hökmdarların bu xüsusiyyətlərini əsərlərinin çox yerlərində nəzərə çatdırmışdır. Öz dövrünün şairləri kimi saraylara gedərək padşahları mədh etməklə onlardan bahalı xalatlar, malikanələr alan, yaxşı yaşayan şairlərdən deyildir. "Şairlərin əllərində olan malikanələr, bağ-bağçalar, xanəgahlar, qulamlar, kənizlər və cariyələr pul müqabilində alınmışdır. Əmirlər, şahlar, hətta xəlifələrin özü də yuxarıda adlarını saydığımız şeyləri şərəf, izzət-nəfs, namus və vicdan müqabilində verirlər. Layiqsiz və zalım hökmdarları tərif edən şairlər sarayların zinətli sütunları altında bəslənən toratanların vəzifəsini bitirirlər. Onlar yazan mədhnamələr də Azərbaycan kəndlisini qırıb məhv edən silahların cərgəsində işlənir, qarət və talanlarda, haqsızlıq və xəyanətlərdə onların qələmləri də iştirak edir. Ancaq hökmdarların qarşısında qul kimi əyilənlər qul və

cariyələr sahibi olurlar. Lakin əqilli və şərəfli başlar xalqın xainləri və xalqın düşmənləri qarşısında əyilməz!” [1,199].

Bəli, şairin dediyi bu sözləri diqqətlə oxuduqda onun xalqın içindən gəldiyini, onları hakimlərin, şahların zülmündən qorumaq üçün öz qələmindən istifadə etdiyini görərik. Şairin başı xalqın əməl və arzuları, məmləkətin istiqlalı uğrunda ancaq o zaman əyilə bilər.

Nizami Gəncəvi bənzərsiz bədii əsərlərin yaradıcısı olan mütəfəkkir bir şair idi. Nizami Gəncəvi öz bəşəri ideyalarını bədii formaya salıb, bu ideyaları öz əsərlərində yaşatmışdır. Şair öz dövründə baş verən ictimai hadisələri həm dərindən bilmiş və öyrənmiş, həm də cəmiyyətdə baş verən ictimai və siyasi hadisələrdə yaxından iştirak etmişdir. Elə buna görə də xalq folklorundan gələn “milli və mənəvi sərvətlərimizin ana dilində qələmə alınacaq imkanlarının məhdudlaşdırıldığına görə daim onu milli dövlətçiliyimizin formalaşdırılması arzusu məşğul etmiş və düşündürmüşdür” [3,8].

Nizami Gəncəvinin yaşadığı dövrdə dövlətçilik idarəsi var idi. Dövlətin idarə olunmasında milli mənşəli insanlar olmaqla bərabər ərəb və fars mənşəli əyanlar sayca daha üstün vəzifələr əldə etmişlər.

Azərbaycanda mövcud olan dövlətlərin hökmdarları azərbaycanlı əsilli olsalar da, saray mühiti, saray yaşayışı hətta saray dili fərqli idi. Məsələn, Şirvan şahı Axsitan doğma dili olan türk dilində danışmırdı, fars dilində danışırdı. Ona görə fars dili yüksək mövqeli insanların dilidir. Nizami Gəncəvidən “Leyli və Məcnun” poemasını yazmasını istəmiş, lakın doğma dildə deyil, fars dilində yazılmasını tələb etmişdir. Şair “Leyli və Məcnun” poemasının müqəddiməsində bu məsələyə münasibətini bildirmişdir:

Türk dili yaraşmaz şah nəslimizə,
Əskiklik gətirər türk dili bizə.
Yüksək olmalıdır bizim dilimiz,
Yüksək yaranmışdır bizim nəslimiz [5,34].

Nizami Gəncəvi şahın poemanın fars dilində yazılması təklifini qəbul etməyib poemanı yazmaq istəməmiş, lakin oğlu Məhəmməd onu bu fikrindən döndərmişdir:

Dedi: “Ey göylərə meydan oxuyan,
“Xosrovi-Şirini” yazıb yaradan,
Hər duyan könüldə bir zövq oyatdın,
“Leyli-Məcnun”dan da yarat bir əsər,
Cüt olsun yazdığın qiymətli gövhər [5,35].

Poemanı şaha təqdim edəndə şah şairin yuxarıdakı misralarına işarə edərək acıqlanmış və poemanı qəbul etməmişdi. Bunun cavabında şair də şaha belə cavab vermişdir: “Mən özümdən heç bir şey əlavə etmədim. Şah indi nəyə acıqlanıbsa, mən də poemanın fars dilində yazılması sifarişini alanda acıqlanmışdım. Çünki hər kəs üçün öz dili, öz xalqı və öz ədəbiyyatı müqəddəsdir” [1,34].

M.S Ordubadinin “Qılınc və qələm” romanını oxuduğumuz zaman Nizami Gəncəvinin şaha verdiyi aşağıdakı ibrətamiz cavabını görmək olar.

“Mən bu əsərimi mükafat almaq məqsədilə yazmamışam. Mən bu əsəri ondan ötrü fars dilində yazmışam ki, xaqan həzrətləri həqir hesab etdiyi azəri xalqının nə qədər mədəni, nə qədər qabil və sənətkar olduğunu bir daha bilsin və xaqan bir daha təsdiq etsin ki, belə bir xalq heç bir zaman əcnəbi boyunduruğu altında yaşamağı sevməz” [1, 302].

Əsərdən də belə məlum olur ki, şahın öz dilinə, öz xalqına göstərdiyi münasibət şairin xoşuna gəlmir, poemanı təqdim etməyib özüylə geri aparır. Bir müddətdən sonra Şirvan şahı

şairə göstərdiyi münasibətdən peşiman olub şairi yenidən sarayına dəvət etsə də, Nizami xəstə olduğunu bəhanə gətirərək poemanı oğlu Məhəmmədlə şahın sarayına göndərir.

Bəli, Nizami Gəncəvi öz elinə-obasına bağlı, öz dilini, xalqını sevən bir şair olmuşdur.

Özlərini şah, sultan adlandıran hökmdarlar milli düşüncələrdən uzaq olduqları üçün aralarında birlik, həmrəylik yox idi. Ona görə də daima hakimiyyət uğrunda müharibələrin, münaqişələrin hədəflərinə çevrilirdi.

Nizami Gəncəvi öz dövründə baş verən siyasi hadisələrə laqeyd olan bir şəxs deyildi. O, ağıllı, müdrik, zəkalı, uzaqgörən bir şair olduğuna görə istər öz dövründə olan hadisələri, istərsə də qədimdə baş verən tarixi hadisələri dərindən bilən bir şəxsiyyət idi.

Kür qırağında Qızıl Arslanla görüşdüyü vaxt Nizami "Xosrov və Şirin" poemasını Qızıl Arslana təqdim edəndə belə demişdir: "Bu əsəri Fərhad və Şirin başlığı altında yaza bilərdim. Lakin Fərhadın sənət və təmiz eşqinə aid yazdığım əsərdə siyasət və dövlətçiliyə aid məqamlara toxuna bilməzdim. Ona görə də Xosrov və Şirin başlığı altında Xosrovların gedəcəyi yolları təyin etməyə çalışdım.Əsas məqsədim nəsihət idi" [2,140].

Dahi şair idrak sahibi bir şəxs olmuşdur. Allah ona düşünmək, dərk etmək bacarığı vermişdir. Dövrünün hadisələrinə biganə qala bilməzdi. Onun baş verən hadisələrə qarşı silahı, qılıncı onun öz qələmi olmuşdur. O, əsərlərində ancaq düşündüklərini, gördüklərini öz qələmi ilə canlandırırdı. Nizami Gəncəvinin yaşadığı dövr elə bir dövr idi ki, dövlət orqanlarında ancaq fars və ərəblərdən ibarət olan bir kütlə hakimiyyəti idarə edirdi. İstər yerli, istərsə də dövlət başında ancaq əcnəbilər mövcud idi. Hakimiyyətin idarəçiliyini sülalə həyata keçirir, rəsmi yazılar isə ərəb və fars dilində yazılırdı. Belə olduğu halda dövlətçilik ideologiyasında milli şüur ola bilərdimi? Nizami Gəncəvi bütün bunları dərindən dərk edib, yazdığı poemalarının hər birini başqa-başqa hökmdarlara ithaf etsə də, əsas məqsədi milli düşüncələrini, ideyalarını öz əsərlərində göstərmək idi.

Şair əsərlərini dövrün hökmdarlarına ithaf etməsinin əsas məqsədi dövlətçilik haqqında fikirlərinin, milli ideyalarının əsərlərində qabarıq şəkildə verilməsi, gələcəkdə ziyalılar tərəfindən oxunub dərk etmələri və ibrət almaları, xalqı üçün tarixi yaddaşa çevrilməsinə çalışmasından ibarətdir.

## ƏDƏBİYYAT

1. M.S.Ordubadi. Qılınc və Qələm.Bakı-1966, Azərnəşr, 8 cilddə. I hissə, səh 34,190, 199,302.
2. M.S.Ordubadi. Qılınc və Qələm.Bakı-1967, Azərbaycan Dövlət Nəşriyyatı, 8 cilddə II hissə,
3. Mübariz Yusifov. Nizamidə azərbaycançılıq. " Elm və Təhsil", Bakı-2012, səh8.
4. Nizami Gəncəvi. " Sirlər xəzinəsi", " Lider nəşriyyatı", Bakı-2004, səh12.
5. Nizami Gəncəvi. " Leyli və Məcnun". " Lider nəşriyyatı", Bakı-2004, səh 34,35.

***Лейла КАРИМОВА***

## ИДЕАЛЫ ГОСУДАРСТВЕННОСТИ НИЗАМИ ГЯНДЖЕВИ
## *РЕЗЮМЕ*

*Ключевые слова:* справедливость, правитель, государство,общество, власть

Гениальный поэт-мыслитель Низами был глубоко осведомлен о социальных событиях своей эпохи. Он был тесно вовлечен в общественные отношения, происходившие в обществе, и ярко показал свое отношение к этим событиям в своих

произведениях. По мнению мыслителя, для существования справедливого государства должен быть милосердный правитель. Поэт придерживается мнения, что понятие милосердия человека стало неотъемлемой частью его политической идентичности. Низами Гянджеви считает, что существует связь между справедливостью и милосердием. Справедливость является показателем милосердия. По мнению поэта, социальная концепция государства означает, что государство сострадательно, не оставляет людей в нужде, защищает их, протягивает им руку в трудную минуту.

***Leyla KARIMOVA***

## IDEALS OF STATEHOOD IN NIZAMI GANJAVI

***SUMMARY***

*Key words:* justice, ruler, state, society, power

The brilliant poet-thinker Nizami was deeply aware of the social events of his era. He was closely involved in the social relations taking place in society, and clearly showed his attitude to these events in his works. According to the thinker, for a just state to exist there must be a merciful ruler. The poet is of the opinion that the concept of a person's mercy has become an integral part of his political identity. Nizami Ganjavi believes that there is a connection between justice and mercy. Justice is an indicator of mercy. According to the poet, the social concept of the state means that the state is compassionate, does not leave people in need, protects them, and extends a hand to them in difficult times.

***Daxil oldu: 16.05.2024-cü il***